# Sumqayıtda qadınlar günü ilə bağlı bayram tədbiri olub



**Sumqayıtda 8 Mart Beynəlxalq Qadınlar Günü ilə bağlı tədbir keçirilib. Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov bayram münasibətilə qadınları təbrik edib, onların cəmiyyətimizdəki misilsiz rolunu yüksək qiymətləndirib.**

Vurğulanıb ki, Azərbaycan qadını tarix boyunca öz zəngin mənəvi dünyası, müdrikliyi, fədakarlığı və qətiyyəti ilə yalnız ailədə deyil, həm də ictimai həyatın bütün sahələrində mühüm mövqe tutmuşdur. Onlar milli dəyərlərimizi qoruyub saxlamaqla yanaşı, elm, mədəniyyət, incəsənət, iqtisadiyyat və siyasət sahələrində də öz sözlərini demiş, ölkəmizin inkişafına mühüm töhfələr vermişlər.

Z.Fərəcov daha sonra bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində qadınların cəmiyyətin bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradılmış, onların bilik və bacarıqlarını reallaşdırması üçün əlverişli şərait təmin olunmuşdur. Dövlətimizin sosial, iqtisadi, siyasi və mədəni inkişafı Azərbaycan qadınının cəmiyyətdə daha fəal rol oynamasına, onların liderlik keyfiyyətlərini ön plana çıxarmasına zəmin yaratmışdır.

Qeyd olunub ki, Sumqayıtın sosial-iqtisadi inkişafında, elmi və mədəni həyatında qadınların əvəzsiz xidmətləri var. Onlar təkcə ailə dəyərlərinin qoruyucusu kimi deyil, eyni zamanda innovasiya və tərəqqiyə töhfə verən fəal vətəndaşlar kimi də mühüm rol oynayırlar. Sumqayıt şəhərində qadınlar ictimai-siyasi, iqtisadi və sosial həyatın bütün sahələrində öz bacarıqlarını nümayiş etdirir, yeni nailiyyətlər qazanaraq şəhərin inkişafına layiqli töhfələr verirlər.

Daha sonra Zakir Fərəcov cəmiyyətin müxtəlif sahələrində yüksək nailiyyətlər qazanan, şəhərin inkişafına töhfə verən bir qrup qadına fəxri fərmanlar təqdim edib.

Tədbir konsert proqramı ilə sona çatıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.7.